**AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRLİYİ**

# ƏMR

**24 fevral 2026-cı il** **3-15/3-2-94/2026**

## Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Qarabağ filialının Əsasnaməsinin təsdiq edilməsi və "Enerji Məsələlərini Tənzimləmə Agentliyinin filiallarının əsasnamələrinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası energetika nazirinin 2020-ci il 9 iyul tarixli F-79 nömrəli Əmrində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın Tədbirlər Planının "1. Ərazilərdə təhlükəsiz yaşayışın və dövlət idarəetməsinin təşkili" prioritet istiqamətinin 1.1.10-cu yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 dekabr tarixli 1750 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Nizamnaməsi"nin 4.5.8-ci yarımbəndinə əsasən Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən təqdim edilmiş təklifləri nəzərə alaraq, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"nin 5.5.4-cü yarımbəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. "Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Qarabağ filialının Əsasnaməsi" təsdiq edilsin (əlavə olunur).

2. "Enerji Məsələlərini Tənzimləmə Agentliyinin filiallarının əsasnamələrinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası energetika nazirinin 2020-ci il 9 iyul tarixli F-79 nömrəli Əmrində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 5-ci hissə ilə təsdiq edilmiş "Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Şəki filialının Əsasnaməsi"nin 1.7-ci bəndinə "Zaqatala" sözündən sonra "və İsmayıllı" sözləri əlavə edilsin;

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRLİYİ
İmzalayan şəxs: Pərviz Şahbazov / Rəhbərlik / Nazir

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.esd.asan.gov.az/info/esign/GlA4c0SutA0hEFaQZBQBjk58P%2FYdFP%2Bm3ekklEL29y0%3D

2.2. 6-cı hissə ilə təsdiq edilmiş “Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Şirvan filialının Əsasnaməsi”nin 1.7-ci bəndinə “Neftçala” sözündən sonra “, Saatlı” sözü əlavə edilsin;

2.3. 7-ci hissə ilə təsdiq edilmiş “Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Mingəçevir filialının Əsasnaməsi”nin 1.7-ci bəndindən “Ağdam,” sözü çıxarılsın və “Ağdərə,” sözündən sonra “Ağcəbədi, Ucar,” sözləri əlavə edilsin;

2.4. 8-ci hissə ləğv edilsin;

2.5. 9-cu hissə ilə təsdiq edilmiş “Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Kürdəmir filialının Əsasnaməsi”nin 1.7-ci bəndində “İsmayıllı” sözü “İmişli” sözü ilə, “Ucar” sözü “Beyləqan” sözü ilə əvəz edilsin.

3. Enerji Məsələlərini Tənzimləmə Agentliyi filialların fəaliyyətinin təsdiq edilmiş əsasnamələrin tələblərinə uyğun olaraq təşkil edilməsini təmin etsin.

4. Ümumi şöbə bu Əmrin surətinin Nazirliyin aidiyyəti struktur bölmələrinə və Enerji Məsələlərini Tənzimləmə Agentliyinə çatdırılmasını təmin etsin.

5. Bu Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

6. Bu Əmr 2026-cı il martın 2-dən qüvvəyə minir.

**Nazir** **Pərviz Şahbazov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRLİYİ
İmzalayan şəxs: Pərviz Şahbazov / Rəhbərlik / Nazir

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.esd.asan.gov.az/info/esign/GlA4c0SutA0hEFaQZBQBjk58P%2FYdFP%2Bm3ekklEL29y0%3D